***Prezident İlham Əliyevin məlum fərmanı ilə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılıb. Fərmanın verilməsindən ötən bir il müddətində Şuşa şəhəri Azərbaycanın Mədəniyyət Paytaxtı, 2022-ci il isə Azərbaycanda "Şuşa ili" elan olunub.***

# "Əhalinin Şuşaya köçürülməsi üçün şəhər tam hazır olmalıdır"

Ötən dövr ərzində Şuşada hansı işlərin görüldüyü, şəhərdə yeni turist marşrutlarının istifadəyə verilməsi, əhalinin buraya sərbəst gediş-gəlişinin təmin edilməsi barədə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov məlumat verib.

Onun sözlərinə görə Şuşa şəhərində Prezident İlham Əliyevin göstərişi ilə böyük abadlıq və quruculuq işləri görülür. Yeni tikililər sırasında xəstəxana, məktəb, bir çox iaşə obyektləri var. Gələn aydan etibarən yeni yaşayış massivinin tikintisinə başlanılır. Şuşada 24 ədəd dördmərtəbəli bina tikiləcək. Burada xidmət göstərən əməkdaşların yaşaması və gələcəkdə Şuşa əhalisinin buraya köçürülməsi üçün hələ xeyli iş görülməlidir. Bu işlər görülməyənə qədər şuşalıların buraya köçürülməsi real görünmür: Biz Daxili İşlər Nazirliyində də, Prezident Administrasiyasında da görüşlər keçirdik, istədik ki, insanların buraya sərbəst gəliş-gediş məsələsini həll edək. Lakin polis israr edir ki, yolun, bütövlükdə, təhlükəsizliyini təmin etmək mümkün deyil. Yəni, insanlar öz nəqliyyat vasitələri ilə Şuşaya sərbəst hərəkət etsələr, yoldan sağa-sola çıxa və bu an təhlükə ilə üzləşə bilərlər. Yüz kilometrlik yolun hər bir hissəsinə polis nəfəri qoymaq qeyri-mümkündür. Bu, ancaq yeni yolun təhvil verilməsindən sonra mümkün olacaq. Qeyd edim ki, bu yol avtoban olacaq, yeni işıqforsuz, sağa-sola çıxma imkanı olmadan birbaşa Füzuli aeroportundan Şuşaya kimi uzanacaq. Yolun gələn ilin mart ayında istifadəyə verilməsi nəzərdə tutulur".




M.Abbasov dedi ki, əhalinin Şuşaya köçürülməsi üçün şəhər tam hazır olmalıdır. Şuşada 1 nömrəli məktəb var idi ki, ermənilər onu dağıtmışdılar. Prezidentimiz həmin yerdə yeni məktəbin təməlini qoydu. 960 şagird yerlik məktəb olacaq və bütün lazımi avadanlıqlarla təchiz olunacaq. Bu məktəb ilk növbədə, burada xidmət edən, bərpa-quruculuq işləri aparan şəxslərin uşaqları üçün nəzərdə tutulub. Təsəvvür edin, burada daimi olaraq polislər, həkimlər, qoruğun əməkdaşları fəaliyyət göstərirlər ki, onlar da məktəbə görə ailələrini gətirə bilmirlər. Bu ilin sonu məktəb təhvil veriləcək və artıq gələn ildən uşaqlar sərbəst məktəbə gedə biləcəklər.

O qeyd etdi ki, tarixi-dini, mədəni abidələr də bərpa olunur. Şuşa şəhərində 190 tarixi abidə var. Ermənilər bunun 60-nı tamamilə dağıdıblar. Yerdə qalanın əksəriyyəti də yararsız halda idi. Restavrasiya işi çox vaxt aparan bir prosesdir. Bir binanın restavrasiyası iki-üç ilə qədər davam edə bilər. Hazırda Şuşa şəhərində Heydər Əliyev Fondu tərəfindən general Mehmandarovun, Məşədi Əlinin, tarzən Sadıqcanın evləri, Şirinsu hamamı, Yuxarı və Aşağı Gövhər ağa, Saatlı məscidlərində bərpa işləri aparılır.

Xurşidbanu Natəvanın, Əsəd bəyin və Uğurlu bəyin evlərinin restavrasiya planı da hazırlanır. İtaliyalı mütəxəssislər bu restavrasiya işlərinin konseptini işləyirlər. Restavrasiya bitən kimi həmin obyektlər turistik marşrutlara salınacaq .

Ən böyük tədbirlərdən biri avqust-sentyabr aylarında nəzərdə tutulub. Bildiyiniz kimi, Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edir. Bu təşkilata daxil olan 120 ölkədən, təxminən, 150 şəhərin meri Şuşaya gələcək. Assambleya Bakı şəhərində toplaşacaq və sonra Şuşaya səfər təşkil olunacaq.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 2 iyun.- S.11.